

# Ramiz MƏMMƏDZADƏ

Amansız ölüm tanınmış şair Ramiz Məmmədzadəni aramızdan apardı.

Ramiz Yaqub oğlu Məmmədzadə 1937-ci ildə Ağdam şəhərində anadan olmuş, 1955-1958-ci illərdə Pedaqoji İnstitutda təhsil almışdır. Əmək fəaliyyətinə Abşeron rayonunun Saray kəndində müəllim kimi başlamışdır. Sonra Abşeron Rayon Komsomol Komitəsində şöbə müdiri, katib, Azərbaycan KP Abşeron Rayon Komitəsində şöbə müdiri vəzifələrində çalışmış, Bakı Ali Partiya Məktəbində təhsilini davam etdirmişdir. Sonrakı illərdə Azərbaycan KP MK Siyasi Maarif Evində məsləhətçi, Nazirlər Kabinetində böyük referent kimi çalışmış, qaçqınlar və məcburi köçkünlər problemi ilə məşğul olmuş, bir çox xarici ölkələrə səfərə çıxan sovet turist qrupuna rəhbərlik etmişdir.

Ədəbi fəaliyyətə 1960-cı ildən başlayan Ramiz Məmmədzadənin "Həmişə sən gələsən", "Vaxtında açsaydı qönçələr", "Xatirə bulağı", "O gecə", "Qeyrət günü", "Canpolad əfsanəsi", "İşıq günü", "Zirvə" və s. kitabları ona geniş oxucu auditoriyası qazandırmışdır.

R.Məmmədzadənin əməyi bir çox döş nişanı və xatirə medalları ilə dəyərləndirilmişdir.

Səmimi insan, bütün ömrü boyu Sözə ləyaqətlə xidmət edən Ramiz Məmmədzadənin xatirəsi onu tanıyanların qəlbində əbədi yaşayacaq.

**Allah rəhmət eləsin!**

**Azərbaycan Yazıçılar Birliyi**